DOI: 10.30546/2616-4418.26.2023.12

# LƏNKƏRAN-ASTARA RAYONLARININ TORPAQ TİPLƏRİNDƏ BAŞ VERƏN FİZİKİ-KİMYƏVİ DƏYİŞİKLİKLƏRİN VƏ EROZİYA MEYLLƏRİNİN ÖYRƏNİLMƏSİ

**Turan Məhərrəmbəy ƏHMƏDLİ**
*Artvin Çoruh Universiteti, Artvin, Türkiyə*
**https://orcid.org/0000-0001-9073-0098**

**Elnur MƏMMƏDZADƏ**
*Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu, Lənkəran, Azərbaycan*
**https://orcid.org/0000-0001-7389-1914**

## Giriş

Bu araşdırmanın məqsədi rütubətli subtropik iqlimin təsiri altında formalaşmış torpaq tiplərində baş verən fiziki-kimyəvi dəyişikliklərin və eroziya meyllərinin öyrənilməsinin köməyi ilə bu torpaq tiplərində baş verən dəyişiklikləri bir daha təhlil etmək, baş verə biləcək eroziya meyllərinin qarşısını almaqdır. Rütubətli iqlim tipinin təsiri altında formalaşmış torpaq tiplərində səciyyəvi olmayan bataqlıqlaşma, şoranlaşma və eroziya növlərinin artması aqromeliorativ tədbirlərin düzgün həyata keçirilməməsi mövzunu aktuallaşdırır. Lənkəran-Astara rayonlarının torpaq tiplərində baş verən fiziki-kimyəvi dəyişikliklərin təcrübə-tədqiqat nəticələrinə görə araşdırılması, bu torpaqlarda baş vermiş eroziya meyllərinin öyrənilməsi və alınmış nəticələrin təhlili mühüm əhəmiyyət kəsb edir.

CC BY NC ND

Lənkəran və Astara rayonlarının əsas hissəsi Talış dağlarının ovalıq və dağətəyi hissəsini əhatə edir. Lənkəran-Astara rayonları Azərbaycan Respublikasının cənub-şərq hissəsində 38º24'-39º24' şimal en dairəsi və 47º58'-48º58' şərq uzunluğunda yerləşmişdir. Respublikamızda rütubətli subtropik iqlim tipinin təsiri altında formalaşmış torpaqlar Lənkəran-Astara rayonlarında alçaq dağlıq qurşağı əhatə etməklə 500-600 metrədək yüksəklikdən başlayaraq dənizsahili ovalığın bir hissəsini əhatə edir. Lənkəran-Astara rayonları relyef tipinə görə iki hissəyə: dağətəyi və dəniz sahilinə bölünür. Bunlar Xəzər dənizinə zəif maillidir. Dağ sistemi uzunsov uc dağ hündürlüklərindən ibarətdir. Onların hündürlüyü şərqdən qərb istiqamətinə tədricən qalxaraq 2500 metrə çatır [1].

Rütubətli subtropik iqlimin təsiri altında formalaşmış torpaq tiplərində baş verən fiziki-kimyəvi dəyişikliklərin və eroziya meyllərinin öyrənilməsi məqsədi ilə sitrus bitkilərinin becərildiyi ərazilərdən torpaq nümunələri götürülərək əldə olunan nəticələrin əvvəlki illərin göstəriciləri ilə müqayisəli təhlili aparılacaq və müvafiq nəticələr çıxarılacaqdır. Son illərdə çəltikçiliyin inkişafı ilə bağlı olaraq bu torpaq tiplərində baş verən fiziki-kimyəvi dəyişikliklərin və eroziya meyllərinin digər sitrus bitkilərinə təsiri araşdırılacaqdır.

Lənkəran-Astara sarı torpaqları əsasən sarımtıl aşınma qabığı üzərində inkişaf edir. İqlim şəraiti ilə əlaqədar torpaqlarda yuyucu su rejimi və torpaqəmələgəlmə məhsullarının profil üzrə aşağıya doğru miqrasiyası müşahidə olunur. Lənkəran-Astara iqtisadi rayonunun torpaq fondu 607 min hektardır. Bunun 408,8 min hektarı alçaq və orta dağlıq ərazilərdə yayılmışdır. Bunun 49,6%-i meşə mənşəli çəmənləşmiş dağ-meşə, bozqırlaşmış qonur dağ-meşə, sarı dağ-meşə, qəhvəyi dağ-meşə və dağ boz-qəhvəyi tip və yarımtip torpaqlardan ibarətdir. Lənkəran ovalığında geniş yayılmış şabalıdı, boz, çəmən-boz, allüvial-çəmən və bataqlıq torpaqlar müxtəlif kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi üçün istifadə olunur. Rayonun ümumi torpaq fondunun 47,5%-i kənd təsərrüfatına yararlıdır və istehsal dövriyyəsinə daxildir. Bu torpaqların 47,3%-i əkin və dincə qoyulmuş torpaqlardır, 3,3%-i çoxillik bitkilərin altındadır, biçənəklər isə cəmi 5,3%-i təşkil edir. Kənd təsərrüfatına yararlı həyətyanı torpaqların sahəsi çoxillik əkmələr becərilən və biçənək torpaqlarına nisbətən çoxdur və 8,6% təşkil edir[2]. Otlaq torpaqları yararlı torpaqların 35,5%-ni təşkil edir. Kənd təsərrüfatında istifadə olunmayan torpaqların bir hissəsi Qızılağac, Hirkan, Züvand qoruq və yasaqlıqlarındadır. Rayonun kənd təsərrüfatında uzunmüddət istifadə olunan yararlı torpaqların münbitlik xassələrini səciyyələndirən və mövcud durumunu əks etdirən keyfiyyət göstəriciləri müxtəlifdir.

Bu ərazilərdə sarı torpaqlar qrupunda 3 torpaq tipi (sarı dağ-meşə, podzollu-sarı, podzollu-qleyli-sarı torpaqlar) formlaşmışdır. Ümumi qəbul edilmiş prinsipləri rəhbər tutaraq M.E.Salayev Azərbaycan torpaqlarının göstərilən təsnifat sxemində aşağıdakı taksonomik vahidləri tətbiq etmişdir: tip, yarımtip, cins, növ. Bu təsnifatın ümumi sxemi cədvəl 1-də ətraflı verilmişdir.

<table>
<tr><th colspan="3">Rütubətli və yarımrütubətli subtropiklərin torpaqları</th></tr>
<tr><td colspan="3">Tip: Sarı dağ-meşə</td></tr>
<tr><td rowspan="2">Tipik dağ-meşə-sarı<br>Podzollaşmış dağ-meşə-sarı<br>Dağ meşə sarı-qonur</td><td rowspan="2">Zəif doymamış<br>Qalıq karbonatlı<br>Qleyvari tam inkişaf etməmiş</td><td>Torpaq profilinin qalınlığına görə:<br>qalın > 100 sm;<br>orta qalınlıqlı 60-80;<br>yuxarı < 50 sm</td></tr>
<tr><td>$A_2$ podzollaşmış qatın yerləşmə dərinliyinə görə:<br>zəif podzollaşmış 40- 50 sm;<br>orta podzollaşmış 30-40 sm.</td></tr>
<tr><td colspan="3">Tip: Podzollaşmış-sarı</td></tr>
<tr><td rowspan="2">Zəif doymamış podzollaşmış-sarı<br>Zəif doymamış lessivajlı podzollaşmış-sarı</td><td rowspan="2">Təmaslı-qleyli<br>Adi mənimsənilmiş</td><td>Torpaq profilinin qalınlığına görə:<br>qalın >120 sm;<br>orta qalınlıqlı 50-80sm;<br>yuxarı < 50 sm.</td></tr>
<tr><td>$A_2$ podzollaşmış qatın yerləşmə dərinliyinə görə:<br>zəif podzollaşmış 40-50 sm;<br>orta podzollaşmış 30-40 sm;<br>şiddətli podzollaşmış 20-30 sm.</td></tr>
<tr><td colspan="3">Tip: Podzollaşmış-sarı-qleyli</td></tr>
<tr><td rowspan="3">Podzollaşmış-sarı-qleyli<br>Podzollaşmış sarı-qleyləşmiş<br>Podzollaşmış-sarı-səthdən qleyləşmiş</td><td rowspan="3">Adi qalıq karbonatlı<br>Tam inkişaf etməmiş</td><td>$A_2$ podzollaşmış qatın yerləşmə dərinliyinə görə:<br>zəif podzollaşmış 40-50 sm;<br>orta podzollaşmış 30-40 sm;<br>şiddətli podzollaşmış 20-30 sm.</td></tr>
<tr><td>Torpaq profilinin qalınlığına görə:<br>qalın >120 sm;<br>orta qalınlıqlı 0-80 sm;</td></tr>
<tr><td>$B_g$ qleyli qatın yerləşmə dərinliyinə görə:<br>səthdən-qleyli AB və B1 horizontları hüdudlarında;<br>dərin qleyli B2/C horizontları hüdudlarında.</td></tr>
</table>

**Cədvəl 1.** Rütubətli subtropik iqlim tipinin təsiri altında formalaşmış torpaqların genetik təsnifatı

Sarı dağ-meşə torpaqları Lənkəran rayonu rütubətli subtropiklərinin səciyyəvi torpaq tipidir. Coğrafi cəhətdən bu torpaqlar dağətəyi və alçaq dağlıq qurşaqda dəniz səviyyəsindən 50-100 metrdən 600-700 metrədək yüksəkdə qonur dağ-meşə və podzollu-sarı torpaqlar arasındakı qurşaqda yerləşir. Viləşçaydan şimalda sarı dağ-meşə torpaqları dağ-qəhvəyi torpaqlar ilə qovuşur, Astaraçaydan cənuba İran ərazisinə doğru davam edir. Bu yüksəkliklər daxilində yamaclar kifayət dərəcədə parçalanmışdır. Bu isə denudasiya proseslərinin inkişafı üçün əlverişli şərait yaradır.Sarı dağ-meşə torpaqlarının yayıldığı ərazilər rütubətli subtropik iqlimə malik olması ilə səciyyələnir. Bu iqlim tipi qışın yumşaq, payız-qış aylarının yağmurlu, yayın mülayim isti olması ilə fərqlənir.

Tipik sarı dağ-meşə torpaqların kimyəvi və fiziki-kimyəvi xassələrində də özünəməxsus cəhətlər mövcuddur. Bu torpaqlarda humus ehtiyatı böyük deyildir. Onun miqdarı 0-100 sm-lik qatda 203,8 t/ha təşkil edir ki, bunun da yarısı (102,4 t/ha) üst 0-20 sm-lik qatın payına düşür[3].(Cədvəl .2).

| **Dərinlik, sm** | **Humus, %** | **Azot, %** | **C/N** | **Udulmuş əsasların cəmi** | **<0,001 mm** | **<0,01 mm** | **pH (su)** |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1-6 | 7,65 | 0,362 | 12,2 | 33,3 | 12,4 | 38,4 | 6,1 |
| 14-19 | 3,73 | 0,216 | 9,1 | 29,0 | 7,9 | 40,2 | 5,6 |
| 30-45 | 2,60 | 0,170 | 8,9 | 30,0 | 14,0 | 45,5 | 6,0 |
| 45-50 | 1,44 | 0,095 | 8,8 | 31,6 | 18,6 | 53,5 | 6,1 |
| 70-75 | 0,92 | 0,09 | 8,4 | 35,9 | 19,8 | 42,6 | 6,6 |
| 95-100 | 0,82 | - | - | 37,6 | 17,2 | 33,3 | 6,6 |
| 120-135 | 0,72 | - | - | 31,4 | - | - | 6,1 |

**Cədvəl 2.** Tipik sarı dağ-meşə torpaqlarının fiziki-kimyəvi tərkib hissələri

Profil boyu dərinliyə doğru hərəkət edərkən $A_2$ qatında humusun miqdarı kəskin şəkildə, sonra isə tədricən azalır. İlboyu isti mövsümün çox davam etməsi nəticəsində üzvi maddələrin minerallaşması çox intensiv getdiyindən torpaqda daha yüksək miqdarda humus maddəsi toplana bilmir. Torpaqlar üçün humat-fulvat tərkibli humus səciyyəvidir. Humusla zəngin olan üst qatda onun miqdarı 0,2-0,4%

arasında dəyişir. Bu torpaqların yüksək udma tutumuna malik olması torpaqəmələgətirici süxurların xarakteri, torpaqəmələgəlmə prosesinin xüsusiyyətləri ilə bilavasitə əlaqədardır. Tipik sarı dağ-meşə torpaqlarının yayıldığı ərazilərdə süxurlar qələvi torpaq və qələvi əsaslarla zəngindir. Aşınma süxurları yüksək gilliyə və udma qabiliyyətinə malik olur. Onların udulmuş kalsium və maqneziumla doyma dərəcəsi də yüksək olur. Torpaqəmələgətirici süxurların bu xassələri isə müəyyən dərəcədə torpağa keçir. Torpaq mühitinin reaksiyası adətən zəif turş olur, pH-ın orta qiyməti 5,8±0,22 təşkil edir[4].

Podzollu sarı torpaqlar Azərbaycan Respublikasında yeganə olaraq Lənkəran-Astara rayonlarında dağətəyi düzənliyin Xəzər abrazion-akkumulyativ terraslarında yayılmışdır. Onlar həmçinin dağətəyi və alçaq dağlıq sahələrdə, çay terraslarında, yamacların dellüvial şleyflərində əmələ gəlirlər.

Podzollu-sarı dağ-meşə torpaqların əsas tərkib hissələri aşağıdakı cədvəldə öz əksini tapmışdır (Cədvəl 3).

| **ərinlik, sm** | **Humus, %** | **Azot, %** | **C/N** | **Udulmuş əsasların cəmi, m-ekv** | **<0,001 mm** | **<0,01 mm** | **H (su)** |
|---|---|---|---|---|---|---|---|
| 0-6 | 5,16 | 0,29 | 10,7 | 26,2 | 27,7 | 66,9 | 5,8 |
| 6-16 | 4,20 | 0,26 | 9,5 | 31,3 | 43,4 | 75,6 | 5,9 |
| 16-42 | 2,95 | 0,20 | 8,6 | 35,8 | 46,6 | 75,4 | 6,2 |
| 42-62 | 1,94 | 0,17 | 6,6 | 35,2 | 47,9 | 75,9 | 6,6 |
| 62-100 | 0,44 | 0,05 | 5,2 | 33,1 | 45,1 | 78,1 | 6,8 |

**Cədvəl 3.** Podzollu-sarı dağ-meşə torpaqlarının fiziki-kimyəvi tərkib hissələri

Cədvəldən göründüyü kimi, bu torpaqların üst çürüntülü-akkumulyativ qatında humusun miqdarı 6,16-6,47% arasında dəyişir. Bu torpaqların tipik növlərində bir qayda olaraq üst qatlardan aşağıya doğru humusun miqdarı əvvəlcə kifayət qədər kəskin şəkildə, daha sonra tədricən azalır, 40-50 il əvvəl meşə və kollar altından azad edilmiş və mənimsənilmiş podzollu-sarı torpaqlarda humusun miqdarı çox vaxt 2,6-3,8% arasında tərəddüd edir. Humusun xeyli hissəsi dəmir-oksidləri ilə birləşmişdir. Ümumi azotun miqdarı üst qatda 0,29-0,30%-ə çatır. C/N genişdir-üst qatda 10,7-11,5-dir. Bu isə humusun azotla nisbətən zəif təmin olunduğunu göstərir.

Podzollu-sarı dağ-meşə torpaqların üst qatında humusun və azotun miqdarının orta riyazi qiyməti müvafiq şəkildə 6,3 və 0,23%-dir. C/N nisbəti isə 12-14 arasında dəyişir [5].

## Lənkəran-Astara rayonlarında rütubətli subtropik iqlim tipinin əhatə etdiyi eroziya meylli torpaqlar haqqında məlumatların toplanması, baş verən eroziya proseslərinin statistik təhlili

Lənkəran-Astara rayonlarında rütubətli subtropik iqlim tipinin əhatə etdiyi eroziya meylli torpaqlarda münbitliyin qorunması, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması torpaqəmələgəlmə proseslərinin zonal xüsusiyyətlərinin elmi analizinin aparılmasını və torpaqda baş verən mənfi proseslər haqqında obyektiv məlumatların olmasını tələb edir. Eroziyaya meylli torpaqların münbitliyinin qorunmasına, idarə edilməsinə, onun geniş təkrar istehsalına xidmət edən konkret aqrotexniki, aqromeliorativ tədbirlər sistemini təşkil etməklə torpaq örtüyünün mövcud strukturunu və parametrlərini qorumaq mümkündür. Bu baxımdan kənd təsərrüfatı istifadəsində olan torpaqların vəziyyəti daha çox diqqət tələb edir. Əkinçilikdə qida maddələri balansının pozulması məhsul istehsalının azalması və keyfiyyətinin aşağı düşməsi ilə yanaşı, aqrolandşaftların sahibliyini azaldır, onun deqradasiyasını sürətləndirir. Müşahidələrə əsaslanan obyektiv informasiya olmadan və onda baş verən dəyişikliklərin ümumi istiqamətini dərk etmədən rütubətli subtropik iqlim tipinin əhatə etdiyi torpaq tiplərinin mühafizəsi məsələlərini praktiki cəhətdən həyata keçirmək mümkün deyil. Müasir dövrdə geoloji, geokimyəvi tamlıq təşkil edən regionların resurslarından kompleks istifadə etmək böyük əhəmiyyət kəsb edir. Təsərrüfatların ərazi təşkilini təkmilləşdirmək üçün ərazinin relyef xüsusiyyətlərini nəzərə almaq çox vacibdi

Torpaq ehtiyatlarının 60-65%-ni dağlıq əraziləri əhatə edən Astara, Lənkəran rayonlarında torpaq eroziyasının qarşısı meşə massivlərinin hesabına xeyli zəifləsə də, eroziyaya məruz qalmış sahələrə əsasən rayonun alçaq dağlıq və təpəli-dalğavari girintili-çıxıntılı relyef şəraitində yayılmış boz-qəhvəyi, dağ-çəmən, qəhvəyi dağ-meşə və şabalıdı torpaqlarda rast gəlinir[6]. Torpaq örtüyündə baş verən dağıdıcı eroziyanın fəaliyyəti bilavasitə təbii və antropogen proseslərin təsiri ilə əlaqədardır (Şəkil 1). Dağlıq ərazilərdə tikinti materiallarının istehsalının inkişaf etdirilməsi ilə əlaqədar ərazinin torpaq-ekoloji durumuna təsir göstərə biləcək halların qarşısının alınmasına dair tədbirlərin işlənib hazırlanması və onların həyata keçirilməsi, torpaqlardan uzunmüddətli səmərəsiz istifadə edilməsi nəticəsində yaranmış torpaqların deqradasiyasının qarşısı alına bilər. Regionda çəltik istehsalının inkişaf etdirilməsi ilə əlaqədar kənd təsərrüfatına yararlı ətraf torpaq sahələrində baş verə biləcək bataqlaşmanın qarşısının alınması üçün kompleks meliorativ tədbirlərin həyata keçirilməsinə ehtiyac yaranmışdır.

Lənkəran-Astara rayonlarının torpaq sahələrinin antropogen və təbii dağıdıcı təsirə məruz qalmış hissələrinin bərpa edilməsi olduqca vacibdir. Düzənlik ərazilərdə az da olsa şoranlaşma, dağlıq və dağətəyi ərazilərdə isə külək eroziyası üstünlük təşkil edir.

Eroziya bir çox ölkələrdə, o cümlədən Azərbaycanda geniş yayılmışdır. Respublikanın eroziyaya məruz qalmış torpaqlarının 38,8%-i (1220,1 ha) zəif, 29,4%-i (924 ha) orta, 31,8%-i (1000,6 ha) şiddətli dərəcədə eroziyaya məruz qalmışdır[7]. Eroziyaya məruz qalmış torpaqlarda torpaqların strukturluğu aşağı düşdüyündən, məsaməliyi azalır və sıxlığı artır. Bu da onun su keçiriciliyinin azalmasına səbəb olur ki, nəticədə səth axınlarının miqdarı artır, su tutumu azalır və torpaqda bitki üçün faydalı su ehtiyatı azalır. Əksər hallarda eroziyaya məruz qalmış torpaqlarda mübadilə olunan kationların tərkibi də pisləşir və torpağın reaksiyası dəyişir.

Əkinçilik üçün əhəmiyyət kəsb edən humusun itirilməsi torpağın bioloji fəallığını zəiflədir, faydalı mikroorqanizmlərin sayı azalır, fermentlərin fəallığı aşağı düşür. Bir sıra xassələri ilə yanaşı, yuyulmuş torpaqların qida, su və bioloji rejimlərinin pisləşməsi münbitliyinin aşağı düşməsinə təsir göstərir. Eroziyanın inkişafı yol şəbəkəsinin dağılmasına, çayların dayazlaşmasına səbəb olur. Eroziya məhsulları isə irriqasiya qurğularının, kənd təsərrüfatı və yaşayış yerlərinin korlanmasına gətirib çıxarır. Ona görə də eroziya ilə mübarizə təkcə kənd təsərrüfatı deyil, xalq təsərrüfatının digər sahələri üçün də olduqca əhəmiyyətlidir.

Torpaq şəraitinin eroziyaya təsiri onun sukeçiriciliyi ilə müəyyən olunur və ona görə də torpağın qranulometrik tərkibindən, strukturluğundan, humus horizontlarının qalınlığından, sıxlıq və üst horizontların nəmliyindən asılıdır. Suyu asanlıqla canına hopduran torpaqlar (strukturlu, yüngül qranulometrik tərkibli, yumşaq) su eroziyasına qarşı daha dayanaqlıdır.

Eroziyaya məruz qalmış torpaqların sahəsinə görə Lerik rayonu daha böyük göstəriciyə malikdir (24467 hektar). Kənd təsərrüfatı torpaqlarının eroziyaya uğrama dərəcəsi daha çox Lerik rayonunda müşahidə olunur. Lerik rayonunun bu kateqoriyadan olan torpaqlarının 36,3%-i və ya 24467 hektarı eroziyaya uğramışdır. Astara rayonunda bu göstərici 32,1% və ya 4528 hektar, Lənkəranda 27,4% və ya 6603 hektara bərabərdir[8] (Cədvəl 3.1).

| **Rayonlar** | **Kənd təsərrüfatına yararlı sahələrin cəmi** | **Eroziyaya uğrama dərəcəsi** | | | | | **İqtisadi rayon üzrə, %** |
|---|---|---|---|---|---|---|---|
| | | **Eroziyaya uğramamış** | **Zəif uğramış** | **Orta uğramış** | **Şiddətli uğramış** | **Eroziyaya uğramış sahələrin cəmi** | |
| Lənkəran | 24066 | 17463<br>72,6 | 28,66<br>11,91 | 3226<br>13,4 | 511<br>2,13 | 6603<br>27,4 | 15,27 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Astara | 14113 | 9585 / 67,9 | 1649 / 11,69 | 2498 / 17,70 | 381 / 2,71 | 4528 / 32,1 | 10,5 |
| Lerik | 67503 | 43036 / 63,8 | 8940 / 13,2 | 7945 / 11,8 | 7582 / 11,2 | 24467 / 36,25 | 56,6 |

**Cədvəl 4.** Lənkəran iqtisadi rayonunda (inzibati rayonlar üzrə) kənd təsərrüfatına yararlı torpaqların eroziyaya uğraması (ha / %)

Lənkəran rayonunda yerləşən Lənkərançay (1080 km$^2$) sahəsinə görə yalnız Balharıçaydan (2170 km$^2$) geri qalır. Bu çay uzunluğu 81 km olan Lənkərançayın sağ və sol ərazilərini əhatə edir (meylliyi 29,8%-ə bərabərdir). Bununla belə, bu çay daxilində çayçılıq, sitrusçuluq, tərəvəzçilik və digər sahələrdə yüksək qiymətləndirilən sarı dağ-meşə, (o cümlədən meşə altından çıxmış) podzollu-sarı və podzollu-qleyli-sarı torpaqların böyük hissəsi cəmləşmişdir. Lənkərançay ekoloji rayonunda çayaltı dağ-sarı və podzollu-sarı torpaqların bəzi münbitlik göstəricilərinin tarixi dövrlər (1953-1956 və 1997-2005-ci illər) üzrə müqayisəsi onların dəyişkənliyini müəyyən etməyə imkan vermişdir[9] (Cədvəl 5).

| **Münbitlik göstəriciləri** | **Dağ-sarı** | | | **Podzollu-sarı** | | |
|---|---|---|---|---|---|---|
| | **1953-1956** | **1997-2005** | **Fərq** | **1953-1956** | **1997-2005** | **Fərq** |
| Humusun miqdarı, % | 3,1 | 2,5 | -0,6 | 2,4 | 1,9 | -0,5 |
| Humusun ehtiyatı, t/ha 0-20 sm | 130,4 | 101,7 | -28,7 | 105,8 | 79,4 | -26,4 |
| 0-50 sm | 199,9 | 162,2 | -38,7 | 154,8 | 132,1 | -22,7 |
| 0-100 sm | 236,3 | 200,1 | -36,2 | 211,3 | 196,6 | 14,7 |
| Ümumi azot, % | 0,19 | 0,14 | -0,05 | 0,17 | 0,13 | -0,04 |
| Ümumi fosfor, % | 0,20 | 0,17 | -0,03 | 0,16 | 0,13 | -0,03 |
| Ümumi kalium, % | 3,62 | 3,48 | -0,14 | 2,55 | 2,42 | -0,13 |
| Udulmuş əsasların cəmi, mq-ekv/100 q torpaqda | 31,4 | 27,7 | -3,74 | 26,6 | 23,1 | -3,62 |
| $Ca^{2+}$ + $Mg^{2+}$, % | 97,3 | 94,5 | -2,8 | 95,8 | 92,6 | -3,2 |
| $Al^{3+}$, % | 0,68 | 0,93 | +0,25 | 0,75 | 1,00 | +0,28 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| pH (su) | 6,0 | 5,5 | -0,5 | 5,9 | 5,3 | -0,6 |
| pH (duz) | 4,9 | 4,5 | -0,4 | 4,8 | 4,3 | -0,5 |

**Cədvəl 5 .** Lənkərançay ekoloji rayonu torpaqlarının münbitlik göstəricilərinin monitorinqi (Məmmədova S.Z.)

Astaraçay ekoloji rayonu podzollu-qleyli-sarı torpaqların münbitlik göstəricilərinin monitorinqi də yuxarıda göstərilən təhlilləri əsasən təkrarlayır. Göründüyü kimi, son 40-50 il ərzində podzollu-qleyli-sarı torpaqlarda potensial münbitliyin əksər göstəriciləri dəyişikliyə məruz qalmışdır. Akkumulyasiya ekoloji rayonu torpaqlarının, o cümlədən ərazidə daha yüksək çəkiyə malik podzollu-qleyli-sarı torpaqların münbitlik göstəricilərinin dəyişkənliyinə onların uzun illər intensiv becərilməsi, suvarılması kimi antropogen amillər də təsir göstərmişdir (Cədvəl 3.3).

| **Münbitlik göstəriciləri** | **Podzollu-qleyli-sarı** | | **Fərq** |
|---|---|---|---|
| | **1953-1956** | **1997-2005** | |
| Humusun miqdarı, % | 2,3 | 1,9 | -0,4 |
| Humusun ehtiyatı, t/ha<br>0-20 sm | 89,9 | 72,8 | -17,1 |
| 0-50 sm | 150,4 | 132,1 | -18,3 |
| 0-100 sm | 203,8 | 177,5 | -26,3 |
| Ümumi azot, % | 0,15 | 0,12 | -0,03 |
| Ümumi fosfor, % | 0,18 | 0,15 | -0,03 |
| Ümumi kalium, % | 2,58 | 2,47 | -0,11 |

**Cədvəl 5.**Astaraçay ekoloji rayonu podzollu-qleyli-sarı torpaqların münbitlik göstəricilərinin monitorinqi

Münbitlik göstəricilərinə görə fərq humus, azot və fosfor kimi əhəmiyyətli maddələrdə daha çox müşahidə olunur. Son 40-50 il ərzində humus ehtiyatında yaranan fərq 0-20 sm dərinlikdə 17,1 t/ha, 0-50 sm-də 18,3 t/ha, 0-100 sm-də isə 26,3 t/ha təşkil edir. Bu fərq son 40-50 ildə azotda 0,03%, fosforda 0,03%, kaliumda isə 0,11% olmuşdur[10] (Cədvəl 3.3).

Lənkəran-Astara rayonlarında rütubətli subtropik iqlim tipinin əhatə etdiyi eroziya meylli torpaqlar haqqında məlumatlar ümumiləşdirilərək, baş verən eroziya proseslərinin müqayisəli təhlili aparılaraq dəyişikliklər öyrənilmişdir. Lənkəran rayonunun torpaq örtüyündə baş verən dəyişiklikləri təkcə antropogen səbəblərlə izah etmək düzgün olmazdı. Burada regionda baş verən ümumi aridləşmənin, qlobal iqlim istiqamətlərinin də rolu olmuşdur.

## Nəticə

1. Rütubətli subtropik iqlim tipinin təsiri altında olan torpaqlarda təbii proseslərin və insan faktorunun təsiri ilə baş verən deqradasiya proseslərini təhlil edərək, əkin sahələrindən düzgün istifadə yolu ilə yüksək məhsuldarlıq əldə etmək, ekoloji tarazlığa nail olmaq olar.

2. Lənkəran-Astara rayonlarının qiymətli əkin torpaqlarında fiziki-kimyəvi dəyişikliklərin qarşısını almaq üçün bir çox ekoloji problemlərin həllinə, o cümlədən meşələrin qorunması və bərpasına, əkin sahələrində aqrotexniki, aqromeliorativ qulluq qaydalarına ehtiyac vardır.

3. Rütubətli subtropik iqlim tipinin təsiri altında olan torpaqlarda baş verən torpaq deqradasiyasının tədqiqi, bunun kənd təsərrüfatının müxtəlif sahələrinə təsirinin öyrənilməsi, müvafiq tədbirlərin işlənilməsi tədricən aktual məsələyə çevrilir.

4. Torpaq və bitki örtüyündən qeyri-səmərəli istifadə edilməsi, mineral gübrələrdən aqrotexniki qaydalara uyğun istifadə olunmaması, hidrotexniki qurğuların düzgün qurulmaması, böyük həcmdə su kütləsinin torpaqlara sızması nəticəsində yaranan şoranlaşma və eroziyanın sürətlənməsi əkinə yararlı torpaq sahələrinin azalmasına səbəb olur.

5. Əkin üçün istifadə olunan torpaqların münbitlik xassələrinə, eləcə də meliorativ durumuna əsasən konkret tədbirlər planı işlənib hazırlanmazsa, onların təsərrüfat dövriyyəsinə cəlb olunması çətinləşəcəkdir.

## Açıqlama bəyanatı

Müəlliflər tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

**Əlaqə**

**E-mail:** muharrembeyturan@gmail.com

## Ədəbiyyat:

Məmmədova S.Z. Lənkəran vilayətinin torpaq ehtiyatları və bonitirovkası, Bakı, Elm, 2003,114 s.

Məmmədov C.Z. Lənkəran zonası kənd təsərrüfatı bitkiləri torpaqlarının aqroekoloji cəhətdən qiymətləndirilməsi. // AKTA-75. Beyn. Elmi simpoziumun külliyatı I cild. Gəncə, 2004, s. 313-327.

Məmmədov Q.S. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi, Bakı, Elm, 1998, 282 s.

Məmmədova S.Z. Lənkəran vilayətinin çayayararlı torpaqlarının münbitlik modelinin pasportu // Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əsərlər toplusu XV cild . Bakı, Elm , 2004, səh. 231-235.

Məmmədova S.Z. Lənkəran zonası torpaqlarının ekoloji qiymətləndirilməsində əsas kriteriyalar// Ekologiya və Təbii Sərvərlər Nazirliyi " Təbii sərvətlərin qiymətləndirilməsi və təbiətdən istifadə " elmi-praktiki konfransın mat-rı. Bakı,2003, s.423-425.

Məmmədova S.Z .,Şabanov C.Ə., Quliyev M.B. Lənkərançay hövzəsi torpaqlarının ekoloji monitorinqi. Bakı , Elm , 2005, 167s.

https://525.az/news/161401-lenkeran-zonasinin-qizil-torpaqlari-munbitliyini-niye-itirir-arasdirma

Məmmədov Q.S. Azərbaycanın torpaq ehtiyatları. «Elm» nəş. 2000, 131 səh.

Xəlilov M.Y. Bitki örtüyününb antropogen dəyişməsi və bərpası. Azərbaycan Respublikası konstruktiv coğrafiyası. Bakı, «Elm», 2000, s 131-159.

Çiftçi G.,Akperov.İ, Economıc development of the Czech Republıc ın terms of ınnovatıon and R&D wıthın the scope of software development. International Journal of Humanities and Social Development Research.Vol 7.N 1/2023. DOI: 10.30546/2523-4331.2023.7.1.62

Həsənov E.Ə. Böyük Qafqazın cənub yamacında eroziya prosesi və onu əmələ gətirən amillər // Eko-inter ictimai hüquqi jurnalı № 05. 2004.

**Məqaləyə istinad:** ƏHMƏDLİ, Turan Məhərrəmbəy,MƏMMƏDZADƏ,Elnur.Lənkəran-Astara rayonlarının torpaq tiplərində baş verən fiziki-kimyəvi dəyişikliklərin və eroziya meyllərinin öyrənilməsi. Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 26, 2023.cəh..12-26. DOI: 10.30546/2616-4418.26.2023.12

## SUMMARY

### Study of Physical-Chemical Changes and Erosion Tendencies Occurring in the Soil Types of Lankaran-Astara Regions

**Turan Maharrambay Ahmadli**
**Artvin Coruh University, Artvin Turkey**

**Elnur Mammadzade**
**Special Constructor Technology Bureau of Aerospace Agency, Lankaran, Azerbaijan**

One of the regions with great economic potential for the development of agriculture in our republic is the Lankaran natural-economic region. Studies show that in recent decades, anthropogenic impacts on natural ecosystems, including land cover, have started to become more and more widespread in the province due to human economic activity. The application of heavy machinery, fertilizers and meliorants and irrigation of plantations located on sloping slopes have worsened the fertility properties of the soil in the foothills, including the structural composition, and weakened the resistance to erosion by increasing the shape of the cultivated and sub-cultivated layers. high density and constant expansion of settlements directly and indirectly affect both ecological conditions and land relations.

In the Lankaran-Astara regions, which are under the influence of humid subtropical climate type in our republic, it has developed at an altitude of 500-600 meters, covering the coastal plain and the low mountainous belt. The Mediterranean-type subtropical climate prevailing in the Lankaran-Astara regions is characterized by a high amount of precipitation, its seasonal nature (maximum autumn and early spring, minimum summer months), high active temperature, a relatively long mild winter, etc. is typical. Under the influence of a humid subtropical climate, yellow soils have developed in areas with diverse bioclimatic and geomorphological conditions. Areas under the influence of a humid subtropical climate differ in terms of relief, vegetation, water regime, circulation and migration of substances. The need to study the relationship between the erosion processes occurring in these soils and the applied agrotechnical and agromelioration processes is increasing year by year.

Studying the changes in soil types formed under the influence of humid subtropical climate and investigating the influence of environmental factors on plant productivity is becoming an increasingly urgent issue.

***Keywords:*** Lankaran-Astara Economic Region, subtropical climate, soil type, relief

## РЕЗЮМЕ

### Изучение физико-химических изменений и тенденций эрозии в типах почв Лянкяранско-Астаринского района

**Туран Магеррамбай Ахмедли**
**Университет Артвина Коруха, Артвин, Турция**

**Эльнур Мамедзаде**
**Специальное конструкторское технологическое бюро Аэрокосмического агентства, Ленкорань, Азербайджан**

Одним из районов с большим экономическим потенциалом для развития сельского хозяйства в нашей республике является Лянкяранский природно-хозяйственный район. Исследования показывают, что в последние десятилетия антропогенное воздействие на природные экосистемы, в том числе на наземный покров, стало приобретать все более широкое распространение в крае в связи с хозяйственной деятельностью человека. Применение тяжелой техники, удобрений и мелиорантов и орошение насаждений, расположенных на пологих склонах, ухудшили плодородные свойства почвы в предгорьях, в том числе структурный состав, и ослабили устойчивость к эрозии за счет увеличения формы обрабатываемых и подпочвенных покровов. культурные слои Высокая плотность и постоянное расширение поселений прямо и косвенно сказываются как на экологических условиях, так и на земельных отношениях.

В Лянкяранско-Астаринских районах, находящихся под влиянием влажного субтропического типа климата нашей республики, она сложилась на высоте 500-600 метров, охватывая приморскую равнину и низкогорный пояс. Субтропический климат средиземноморского типа, преобладающий в Лянкяранско-Астаринских районах, характеризуется большим количеством осадков, их сезонным характером (максимум осенью и ранней весной, минимумом летних месяцев), высокой активной температурой, относительно продолжительной мягкой зимой и др. является типичным. Под влиянием влажного субтропического климата желтоземы сформировались в районах с разнообразными биоклиматическими и геоморфологическими условиями.

Районы, находящиеся под влиянием влажного субтропического климата, различаются по рельефу, растительности, водному режиму, циркуляции и миграции веществ. Необходимость изучения взаимосвязи эрозионных процессов, происходящих в этих почвах, с применяемыми агротехническими и агромелиоративными процессами возрастает с каждым годом. Изучение изменений типов почв, формирующихся под влиянием влажного субтропического климата, и изучение влияния экологических факторов на продуктивность растений становится все более актуальной задачей.

***Ключевые слова:*** Лянкяранско-Астаринский экономический район, субтропический климат, тип почвы, рельеф